***Ermənilər Azərbaycan xalqının əsrlər boyu yaratdığı tarixi, mədəni irsini yer üzündən silmək məqsədilə mədəniyyət abidələrimizi də məhv ediblər. 30 il işğal altında olan, erməniləşdirilməyə və dağıntılara məruz qoyulan daşınmaz tarix-mədəniyyət abidələrimizin vəziyyəti bütün dünyaya bəllidir.***

# Qarabağda tarix və mədəniyyət abidələrimizin 95 faizi məhv edilib

İşğalçı Ermənistan tərəfindən əzəli torpaqlarımızdakı İslam mədəniyyəti abidələri tamamilə məhv edilib və ya erməniləşdirilib. Mədəniyyət Nazirliyi tərəfindən işğaldan azad olunmuş ərazilərdə monitorinqlər aparılıb. Monitorinqlər zamanı bu ərazilərdə kitabxanalar, mədəniyyət evləri, mədəniyyət mərkəzləri, klublar, muzeylər, uşaq musiqi məktəbləri, rəsm qalereyaları və s. mədəniyyət obyektləri qeydiyyata alınıb və onların hamısının tamamilə dağıdılmış vəziyyətdə olduğu müəyyən edilib.

Mədəniyyət naziri Anar Kərimov Türkiyənin Anadolu agentliyinə müsahibəsində bununla bağlı demişdir: "Mədəniyyət Nazirliyi tərəfindən aparılan ilkin monitorinqlərin nəticələrinə əsasən işğaldan azad olunmuş ərazilərdə dövlət qeydiyyatına alınmış 706 tarix və mədəniyyət abidəsi var. Apardığımız monitorinq nəticəsində onların 95 faizinin dağıdıldığının şahidi olduq. Bizi ən çox məyus edən məscidlərimizə olan münasibətdir. Erməni vandalları bütün binaları dağıtdıqdan sonra məscidlərdə ev heyvanlarını saxlayıblar. İşğalı nəticəsində ermənilərin Qarabağda dağıdıb viran qoyduqları muzeylər, məscidlər, abidələr tək Azərbaycan xalqının mədəni irsinə deyil, bütün İslam dünyasına, ümumilikdə isə, bəşər mədəniyyətinə qarşı vandalizm aktı törədiblər".

Mədəniyyət abidələrinin bərpası bu gün dövlətimizin diqqət mərkəzindədir. Bu sahədə Şuşada aparılan planlarında mədəniyyət və tarixi abidələrin bərpasına xüsusi diqqət yetirilmişdir. Bu planlarda abidələrin hərtərəfli öyrənilməsi, həyata keçiriləcək infrastruktur layihələrinin icrası və kommunikasiyaların qurulması zamanı tarixi- mədəni




bərpa-quruculuq işləri sürətlə həyata keçirilir. Burada muzeylər bərpa edir, abidələr yenilənir, sərgi salonları açılır və s. Eləcə də digər işğaldan azad edilmiş ərazilərin bərpa abidələrin bərpasının uyğun formada təmin edilməsi əsas məsələlərdəndir.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 20 oktyabr.- S.11.